

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 sentyabr 2022-ci il №69 (2680) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2022-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram**:

1. 2004-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1987-2003-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2022-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2022-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 sentyabr 2022-ci il

## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Sentyabrın 3-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Cənubi Qafqazda cari vəziyyət hərtərəfli müzakirə edilib. Ermənistan-Azərbaycan sərhədində sabitliyin və təhlükəsizliyin təmin edilməsi, regionda iqtisadi və nəqliyyat əlaqələrinin nizamlanması üzrə əlaqələndirilmiş səylərin vacibliyi qeyd olunub. Bu baxımdan Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli əsas üçtərəfli razılaşmalarının ardıcıl olaraq reallaşdırılması əzmi təsdiq edilib.

Prezident İlham Əliyev avqustun 31-də Brüsseldə Ermənistanın baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü barədə məlumat verib.

Telefon danışığı əsnasında ikitərəfli gündəliyin bəzi praktiki məsələləri, o cümlədən iqtisadi-ticari, energetika və humanitar sahələrə aid məsələlər də nəzərdən keçirilib.

Təmasların davam etdiriləcəyi qeyd olunub.

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Ermənistan tərəfi eyni iradə nümayiş etdirsə, biz bir neçə ay ərzində sülh sazişini imzalaya bilərik



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinin müxbiri Roberto Boncorniyə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edib.*

**Roberto Boncorni**: Sabahınız xeyir, cənab Prezident. Bizi qəbul etdiyinizə görə sağ olun. Son görüşümüzdən sonra bir çox dəyişikliklər baş verib və biz regionda dinamikanı anlamağa çalışırıq.

**Prezident İlham Əliyev**: Bizim regionda vəziyyət sülhə doğru inkişaf edir, mən buna ümid edirəm. Mən İtaliyaya Brüsseldən gəldim. Orada mənim, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri arasında üçtərəfli görüşümüz oldu. Biz razılığa gəldik ki, bir ay müddətində Azərbaycan və Ermənistan xarici işlər nazirləri sülh sazişi ilə bağlı praktiki danışıqlara başlamaq məqsədilə görüşəcəklər. Bu, bizim İkinci Qarabağ müharibəsinin bitməsindən demək olar ki, dərhal sonra irəli sürdüyümüz təklif idi. Biz bildirdik ki, bizim sülhə, sülh sazişinə ehtiyacımız var. Bununla razılaşmaq üçün Ermənistana təqribən iki il lazım oldu. Zənnimcə, bu, görüşün ən mühüm nəticələrindən idi. Əlbəttə, bu sülh danışıqlarının gedişatından çox şey asılı olacaq. Zaman çərçivəsi və məzmun nədən ibarət olacaq. Hesab edirəm ki, biz bir neçə ay ərzində sülh sazişini yekunlaşdırıb imzalaya bilərik. Ermənistan tərəfi eyni iradə nümayiş etdirsə, zənnimcə, bu, realdır. Biz sülh sazişinin üzərində qurulmalı olduğu beş baza prinsipini irəli sürdük və Ermənistan bunu qəbul edib.

**- Yəni, bu, iki ölkəni və bütün regionu birləşdirən infrastrukturun yaradılması istiqamətində çox vacib addım ola bilər.**

- Tamamilə haqlısınız. Azərbaycan, Ermənistan və digər qonşularımızı birləşdirən infrastrukturun yaradılması məsələsi müharibənin bitməsindən sonra imzalanmış üçtərəfli Bəyanatda öz əksini tapıb. Azərbaycan azad olunmuş ərazilərdə artıq irimiqyaslı infrastruktur layihələrinin icrasına başlayıb. Biz birinci beynəlxalq hava limanını istifadəyə vermişik. İkinci beynəlxalq hava limanının uçuş-enmə zolağı artıq fəaliyyət göstərir və tezliklə hava limanının açılışı olacaqdır. Biz elektrik stansiyaları tikmişik və elektrik xətləri çəkmişik. Avtomobil yolları, tunellər, körpülər və dəmir yolları inşa edirik. Bütün işlər gedir və biz bu işləri yalnız qonşular ilə bağlılığı təmin etmək və daxili istifadə üçün görmürük. Bu səylər, həmçinin Ermənistan vasitəsilə Azərbaycanı özünün Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin icrasına yönəldilib.

**- İcazə verin, qaz məsələsinə keçək. Çünki bu, vacib məsələdir. Avropa Rusiyanın təbii ehtiyatlarından asılılığına son qoymağa çalışır. Siz qeyd etdiniz ki, iyul ayında Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen ilə görüşdünüz və Azərbaycandan Avropaya nəql edilən qazın həcminin iki dəfə artırılması, sərmayə qoyuluşu ilə bağlı anlaşma memorandumu imzaladınız. Burada söhbət 2027-ci ilədək ixracın 10 milyarddan 20 milyard kubmetrə çatdırılmasından gedir. Cənab Prezident, bu, mühüm addımdır. Lakin bu, Rusiyanın Avropaya ixracı ilə müqayisədə kiçik həcmdir. Çünki 2021-ci ildə Rusiya Avropaya 155 milyard kubmetr qaz nəql edib. Sizin rəhbərliyinizlə Azərbaycan həcmi artırmaq baxımından Avropanın digər hissələrinə qaz nəql etmək məqsədilə hər hansı əlavə layihələri nəzərdən keçirirmi? Buna böyük ehtiyac var.**

- Bəli, mən bunu anlayıram. Biz hazırda sərmayə qoyuluşu baxımından yeni imkanlar və planları nəzərdən keçiririk. Ancaq sizin istinad etdiyiniz vəziyyət olduqca yenidir. Heç kəs buna hazır deyildi. Bizim bütün enerji layihələrimiz, o cümlədən təbii qazın nəqli ilə bağlı olan layihələrimiz mövcud həcmlərə əsaslanıb. Biz Azərbaycandan qaz alan Avropa şirkətləri ilə müqavilələri uzun illər əvvəl imzalamışıq. Daha sonra biz boru kəmərlərinə sərmayə qoyduq. Biz Avropaya yalnız bir il yarım əvvəl qaz nəql etməyə başladıq. 2021-ci ilin ilk günündə biz İtaliyaya qaz nəql etməyə başladıq. Beləliklə, bizim nəzərdə tutduğumuz planlar tam şəkildə həyata keçirilib.

Xanım Ursula Fon der Lyayen ilə istinad etdiyiniz görüşə gəldikdə isə, biz hasilatı qısa zamanda artırmaq məsələsini müzakirə etdik. Avropaya ixracı iki dəfə artırmaq böyük işdir. Bu, xırda məsələ deyil. Buraya sərmayə yatırılmalı, texniki imkanlar genişləndirilməlidir. Çünki hazırda Avropaya qaz nəql edən boru kəmərimiz TAP-ın ötürmə qabiliyyəti 10 milyard kubmetrdir. Yəni, biz onu 20 milyard kubmetrə çatdırmalıyıq. Bu isə maliyyə vəsaiti və səhmdarlar arasında razılıq tələb edir və bu, bir prosesdir.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Ermənistan tərəfi eyni iradə nümayiş etdirsə, biz bir neçə ay ərzində sülh sazişini imzalaya bilərik

**(Əvvəli 1-ci səhifədə)**

Bizim ehtiyatlarımıza gəldikdə, mən konfransda bu haqda danışdım. Təsdiq edilmiş ehtiyatlarımızın həcmi ən azı 2,6 trilyon kubmetr qaz təşkil edir. Potensial olaraq biz Avropaya 20 milyard kubmetrdən artıq da qaz ixrac edə bilərik. Lakin biz anlamalıyıq ki, Avropa bizim üçün yeganə bazar deyil. Biz Türkiyəni İtaliya ilə eyni həcmdə qazla təchiz edirik. İxrac 10 milyard kubmetr təşkil edir və Türkiyə bazarının tələbatı da artmaqdadır. Bazar o qədər böyük olmasa da, biz Gürcüstanı da qazla təchiz edirik. Bizim bu il ümumi ixracımız 22-23 milyard kubmetr təşkil edəcək. Ancaq hasilatı artırmaq üçün yataqlara böyük sərmayə qoyulmalı və texniki imkanlar genişləndirilməlidir. Söhbət təkcə TAP-dan getmir. Biz TANAP-ı genişləndirməliyik. Biz TANAP-ı 16 milyard kubmetrdən 32 milyard kubmetrə qədər genişləndirməliyik. Bəli, bunun üçün bizə yeni kəmər tikmək lazım olmayacaq. Bizə yalnız kompressor stansiyalarının istifadəyə verilməsi lazım olacaq. Bu isə sərmayə gözləyir.

Bir mühüm məqamı da qeyd etməliyəm ki, biz nə əvvəllər, nə də indi öz qarşımıza Avropa bazarında Rusiya qazı ilə rəqabətə girmək kimi hədəf qoymamışıq. Bizim öz yerimiz var. Biz Avropanın üç ölkəsi ilə, yəni, İtaliya, Yunanıstan və Bolqarıstanla müqavilələr imzalamışıq. Avropanın digər ölkələrinin də tələbatı var və biz həmin tələbatı qiymətləndiririk. Sizin də qeyd etdiyiniz kimi, digər layihələr də var. Məsələn, Balkan dövlətlərinə qədər uzanan İon-Adriatik kəməri, tezliklə istifadəyə veriləcək Yunanıstan-Bolqarıstan interkonnektoru və digər interkonnektorlar. Ancaq bütün bunlar masanın üzərində bir pazlı xatırladır. Bizim potensial istehlakçılarla fəal dialoq aparmağımız, sərmayədarlarla, maraqlı tərəflərlə həm istehsalat, həm də distribütor işlərində, həmçinin qiymətlə bağlı danışıqlar aparmaq kimi qarşımızda görüləsi çox iş dayanır.

**- Cənab Prezident, icazə verin, Sizə uzunmüddətli perspektivlə bağlı sual verim. Ölkənizin potensialı çox genişdir və o, mühüm strateji mövqeyə malikdir. Məsələn, 30 illik mübahisədən sonra, 2021-ci ildə Siz Türkmənistanla Xəzər dənizində "Dostluq" qaz yatağının işlənməsi ilə bağlı müqavilə imzalamısınız. Siz, məsələn, Transxəzər kəmərinin tikintisini nəzərdən keçirirsinizmi? Çünki bununla siz Qazaxıstanın və Türkmənistanın qaz yataqlarını birləşdirərək təkcə Avropa deyil, bütün region üçün misilsiz bir qaz qovşağına çevrilə bilərsiniz.**

- Bəli, siz haqlısınız. Mən Azərbaycanın Türkmənistanla "Dostluq" yatağının birgə işlənilməsi qərarını tarixi qərar kimi dəyərləndirirəm. Çünki biz hər iki ölkənin milli maraqlarına, qardaşlıq münasibətlərimizə əsaslanaraq bu qərarı vermişik. İndi bizim qarşımızda bu yatağın işlənilməsinə başlanması kimi hədəf dayanır. Bu, qaz deyil, əsasən neft yatağıdır.

Transxəzər layihəsi ilə bağlı sualınıza gəldikdə isə, bu layihə uzun illərdir ki, müzakirə olunur. Bu məsələnin 15 ildir müzakirə olunduğunu xatırlayıram. Amma praktiki nöqteyi-nəzərdən heç bir addım atılmayıb. Biz Cənub Qaz Dəhlizinin tikintisi ilə bağlı təşəbbüs irəli sürdükdə aparıcı rolu öz üzərimizə götürdük, biz komanda yaratdıq, xarici dövlətlərlə, istehlakçılarla, şirkətlərlə danışıqlar apardıq. Biz, həmçinin əsas investor idik. Bakıdan Ceyhana qədər kəmərin tikintisi zamanı da belə oldu. Onu demək istəyirəm ki, bu layihənin təşəbbüskarı tranzit ölkələr deyil, resursların sahibləridir. Tranzit ölkələr yalnız dəstək verə, ərazi təmin edə və ya ortaq sərmayədar, yaxud tranzit haqlarını qəbul edənlər ola bilərlər. Başqa sözlə desək, Transxəzər kəməri Azərbaycanın layihəsi deyil. Bizim neft və qaz layihələrimizə gəldikdə isə onların hamısı icra olunmuşdur. Biz indi elektrik enerjisinin Avropaya ixracı ilə bağlı layihəni icra edirik. Ancaq Transxəzər layihəsi isə Türkmənistanın resurslarına əsaslanır. Ona görə də əgər Türkmənistan hökuməti Transxəzər kəmərini tikmək qərarına gələrsə, bu, onların qərarı olacaq. Əgər onlar belə bir qərar verərlərsə, əlbəttə ki, biz onları dəstəkləyəcəyik. Ancaq burada biz təşəbbüskar olmayacağıq.

**- Azərbaycan kiçik, lakin müasir dövlətdir və üç güclü regional dövlətin - Sizin güclü müttəfiqiniz olan Türkiyə, Rusiya və İranın əhatəsində yerləşir. Həmişə balansı qoruyub saxlamağa müvəffəq olmusunuz. Lakin son altı ayda vəziyyət köklü şəkildə dəyişib və Siz qazla bağlı Avropaya daha da yaxınlaşırsınız. Siz Rusiya tərəfindən hərbi deyil, kommersiya və diplomatik sahələrdə hər hansı təzyiqlə üzləşirsinizmi?**

- Xeyr, qətiyyən yox. Bunun səbəbi odur ki, bizim regiondakı münasibətlərimiz çox yaxşı balanslaşdırılmışdır, onların öz dinamikası var. Bizim hər bir qonşu ilə xüsusi ikitərəfli əməkdaşlıq gündəliyimiz var və bu gündəlik bütün qonşularla fərqlidir. Biz hər bir qonşumuzla ədalətli və səmimi davranırıq, heç vaxt vədimizi pozmuruq. Əgər nəyisə deyiriksə, qonşularımız əmin olurlar ki, biz onu edəcəyik. Bizim sözümüzün imzamız qədər qüvvəsi var. Ona görə də bu çətin vəziyyətdə biz nə Rusiyadan, nə də İrandan mövqeyimizlə bağlı hər hansı mesaj almamışıq. Bizim mövqeyimiz çox sadədir. Biz hər bir dövlətin ərazi bütövlüyünü daim dəstəkləyirik və bu, fundamental mövqedir. Bəli, bu, bizim öz problemimizə əsaslanırdı. Çünki bizim ərazi bütövlüyümüz pozulmuşdu və biz indi ərazi bütövlüyümüzü bərpa etdikdən sonra da bu mövqedəyik. Çünki ölkənin ərazi bütövlüyü zor tətbiq edilərək pozula bilməz, bu, beynəlxalq hüququn pozulmasıdır. Bu mövqe kiminsə xoşuna gələ bilər, kiminsə yox, ancaq onlar bunu nəzərə almalıdırlar. Qısa olaraq demək istəyirəm ki, bizim regional inkişafla bağlı narahatçılıq yaradan heç bir məqamımız yoxdur.

Siz Türkiyənin bizim müttəfiqimiz olduğunu dediniz. Türkiyə qlobal səviyyədə güclü dövlətdir və əlbəttə ki, bizim keçən il Türkiyə ilə imzaladığımız müttəfiqlik haqqında Bəyannamə regional sabitlik üçün çox əhəmiyyətli amildir. Türkiyənin Azərbaycana həm siyasi, həm də mənəvi dəstək göstərdiyi İkinci Qarabağ müharibəsi bitəndən sonra bizim münasibətlərimiz daha da gücləndi. Beləliklə, bu, çox mühüm amildir. Türkiyə və Azərbaycan regionda bir çox məsələlərlə bağlı demək olar ki, vahid komanda kimi hərəkət edir. Bu da hamı tərəfindən nəzərə alınmalıdır.

**- Gəlin, mövzumuzu iqtisadiyyata yönəldək. Düşünürəm ki, bu gün Azərbaycan enerjidən çox gəlir əldə edir. Ancaq Siz qeyd etmisiniz ki, iqtisadiyyatın şaxələndirilməsi ölkəniz üçün başlıca prioritetdir. Bu proses necə gedir? Belə görünür ki, bu proses Sizin təsəvvür etdiyiniz kimi getmir?**

- Gəlirlərlə bağlı onu demək istəyirəm ki, belə bir ümumi fikir var: yüksək neft qiymətləri ixracatçılara həddindən artıq əlavə sərvət gətirir. Bəli, bu, doğrudur. Bizim gəlirlərimiz artıb. Ancaq, eyni zamanda, biz kapital bazarlarında pul itirmişik, çünki bizim Dövlət Neft Fondunun sərvətləri müxtəlif alətlərdədir. Kapital bazarı çöküb. Ona görə də biz digər suveren fondlar kimi pul itirmişik, ancaq elə də çox pul itirməmişik. Bəzi suveren fondlar 100 milyard dollardan çox vəsait itiriblər. Biz 2-3 milyard dollar itirmişik.

Şaxələndirməyə gəldikdə isə, əlbəttə ki, ixracımızı şaxələndirməyimizdən asılı olmayaraq, bizim qeyri-neft və qeyri-qaz ixracımız neft və qaz ixracına uyğun gəlməyəcək. Çünki neft və qaz ixracı artır. Məsələn, keçən il biz İtaliyaya 9,6 milyard dollar, bu ilin 7 ayında isə 11 milyard dollar həcmində təbii qaz ixrac etmişik. Qazın qiyməti düşdü. Beləliklə, şaxələndirmə bizim üçün ümumi daxili məhsulda öz əksini tapan statistika deyil, o, xalqımız üçün iş yerləri təmin etmək və yaxşı həyat şəraiti yaratmaq deməkdir. Məsələn, bu ilin altı ayındakı ümumi daxili məhsulumuza baxsanız, nə görəcəksiniz? Ümumi daxili məhsul 6,2, qeyri-enerji sektorunda isə demək olar ki, 10 faiz, qeyri-enerji ilə bağlı sənayedə isə 11 faizdən çox artıb, qeyri-enerji ixracı 25 faiz artıb. Beləliklə, bu, göstərir ki, artım göz qabağındadır, ancaq bu, kifayət deyil. Buna görə də bizim daha çox islahatlara, qeyri-enerji sektorunda daha çox sərmayəyə və bunun üçün də, əlbəttə ki, biznes mühitinə ehtiyacımız var. Əlbəttə ki, o sahədə irəliləyişlər var. Lakin bütün bu bürokratik maneələri və keçmiş sovet dövrünün psixoloji mirasını aradan qaldırmaq üçün hələ də çox iş görməliyik.

**- Əlbəttə, Siz azad olunmuş əraziləri yenidən qurmalısınız. Azad olunmuş ərazilərdə işlərin şaxələndirilməsində İtaliya şirkətlərinin ölkənizə kömək etməsi üçün yeni müqavilələr imzalana bilərmi?**

- İtaliya şirkətləri işğaldan azad olunan ərazilərdə aktiv fəaliyyət göstərirlər. İtaliya şirkətlərinin gördüyü işlər miqyasına görə Türkiyə şirkətlərindən sonra ikinci yerdədir. Türkiyə şirkətlərinin birinci yerdə olması təbiidir. Çünki Türkiyə bizim müttəfiqimiz, yaxın dostumuz və qonşumuzdur. Onların məşhur tikinti şirkətləri var. İkinci yerdə isə İtaliya şirkətləridir. Mən sizə misal göstərə bilərəm. Məsələn, bizim Memorial və Zəfər muzeylərimiz təkcə Bakıda deyil, işğaldan azad olunmuş şəhərlərdə də İtaliya şirkətləri tərəfindən dizayn olunub və tikiləcək. İtaliya şirkətləri işğaldan azad olunmuş dörd rayonda - Ağdam, Füzuli, Qubadlı və Kəlbəcərdə elektrik stansiyalarını avadanlıqlarla təchiz edib.

**- Yaşıl enerjidən bəhs edirsiniz?**

- Bu, hidroenerjidir. Şirkətin adı "Ansaldo"dur. Daha bir İtaliya şirkəti bizim xahişimizlə Şuşada yeni məscidin layihəsini dizayn edib və onu icra edəcək. Beləliklə, bu, bizim münasibətlərimizin nə dərəcədə yaxın olduğunu göstərir. Çünki Şuşa hər bir azərbaycanlı üçün müqəddəs məkandır. Şuşada tikiləcək yeni məscidin layihəsi İtaliya şirkətinə həvalə olunub. Bu, o deməkdir ki, bizim aramızda çox yüksək dərəcədə etimad var və bu addımı atmışıq. Bizim böyük planlarımız da var. Məsələn, bərpaolunan - külək, günəş və su elektrik stansiyalarının qurulmasında daha çox İtaliya şirkətini dəvət etmək üçün böyük planlarımız var. Dünən Baş nazirlə görüşüm zamanı biz İtaliya şirkətlərinin Azərbaycan tərəfindən maliyyələşdirilən və Azərbaycanda İtaliya şirkətlərinin icra etdiyi müqavilələrin dəyərini nəzərdən keçirdik. Həmin müqavilələrin dəyəri on milyard dollardan çoxdur. Beləliklə, İtaliya Azərbaycanda yaxşı təmsil olunub. Lakin əminəm ki, işğaldan azad olunan bölgələrdə Türkiyədən sonra öz ikinciliyini bütün yenidənqurma prosesi zamanı qoruyub saxlayacaq.

**- Dünən Sercio Mattarella ilə çox yaxşı görüşünüz oldu. Bu, ilk görüşünüz deyildi. Çoxşaxəli strateji tərəfdaşlıqla bağlı nə deyə bilərsiniz?**

- Tərəfdaşlığımız uğurla həyata keçirilir. Bizim ikitərəfli gündəliyimiz getdikcə genişlənir. Təbii ki, bunun əsas hissəsini enerji və ticarət təşkil edir. Lakin bunlar yeganə mövzular deyil. Dünən səfirliyimizin yeni binasında biz İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı sənədlərin mübadiləsinə həsr edilmiş gözəl mərasimin şahidi olduq. Bunlar ADA Universiteti və İtaliyanın beş universiteti - Luiss Universiteti, Turin Politexnik Universiteti, Milan Politexnik Universiteti, Bolonya Universiteti və Romanın Sapienza Universitetidir. Gözəl məkanda yerləşən universitet binası inşa edilməkdədir və 2024-cü ilin sonunadək hazır olacaq.

Biz Avropa İttifaqı-Azərbaycan tərəfdaşlığı çərçivəsində fəal əməkdaşlıq edirik. İtaliya hər zaman Azərbaycanın Avropa İttifaqı ilə yaxınlaşmasını güclü şəkildə dəstəkləyib. İtaliya hər zaman bizim NATO ilə daha sıx əməkdaşlıq qurmaq səylərimizi dəstəkləyib. Əlbəttə, bu gün Bakını İtaliya sahilləri ilə birləşdirən 3500 kilometrlik enerji körpüsü enerji təhlükəsizliyi körpüsüdür. Bu, təkcə İtaliyaya şamil edilmir. Əminəm ki, İtaliya Azərbaycanın karbohidrogen resurslarını Avropanın digər yerlərinə ötürəcək ölkə olacaqdır.

Beləliklə, burada enerji seqmenti, iqtisadiyyat və ticarətin inkişafı mövzuları var. İtaliya bizim əsas ticarət tərəfdaşımızdır. Bundan başqa, təhsil, mədəniyyət və bir sıra digər sahələr var. Yəni, strateji tərəfdaşlıqla bağlı bəyanat fəaliyyətdədir.

**- Sonuncu qısa sual. Rusiya ilə bağlı bütün çətinliklərin fonunda yeni İpək Yolunun Xəzər üzərindən keçməsi və zəruri infrastruktur olduğu halda ölkəniz kommersiya mərkəzinə çevrilə bilər. Bu haqda nə vaxtsa düşünə bilərdiniz?**

- Bəli, siz haqlısınız. Biz bunun üzərində illər öncə çalışmağa başlamışıq. Biz Xəzər dənizində ən böyük ticarət limanı inşa etmişik. Bu gün o tam gücü ilə çalışır və biz artıq onu genişləndirməliyik. O, 25 milyon ton yük və 1 milyon konteyner qəbul etmək imkanına malik olmalıdır. Biz Bakıda gəmiqayırma zavodu inşa etmişik. Biz Xəzər dənizinin şərq sahillərindən neft və digər yük daşıyan hər növ gəmilər inşa edə bilirik. Biz dəmir və avtomobil yolları tikmişik. Çin və Mərkəzi Asiya ölkələrindən Azərbaycan vasitəsilə ixrac artmaqdadır və zənnimcə, artım 20 faiz səviyyəsindədir.

Bütün bu işlər Rusiya-Ukrayna müharibəsindən əvvəl görülüb. Rusiya-Ukrayna müharibəsi Xəzərin şərq sahilindəki şirkətlər üçün bir siqnal oldu ki, bu marşrut daha da yaxından nəzərdən keçirilməlidir. Biz isə yaxşı tariflər təklif edir və bütün zəruri logistika dəstəyi təmin edirik. Yəni, açıq dənizə çıxışı olmayan ölkə olaraq Azərbaycan bu gün regional nəqliyyat mərkəzinə çevrilir - təkcə Şərqdən Cənuba və geriyə deyil, həmçinin Şimaldan Cənuba. Cənub-Şimal nəqliyyat dəhlizi Azərbaycandan keçir və başqa marşrut variantı yoxdur. Həmin dəhliz, məsələn, Rusiya şirkətləri üçün əhəmiyyətli olur, çünki bu gün sanksiyalar səbəbindən onlar Avropa məntəqələrinə yük daşıya bilmir. Yəni, Azərbaycandan keçərək İrana və Fars körfəzi sahillərinə gedən marşrut Rusiya şirkətləri üçün ən cəlbedici olur. Bunu Fars körfəzindən Azərbaycan vasitəsilə Rusiyaya uzanan marşrut haqqında da demək olar.

Biz iki dəhliz üzərində yerləşirik - Cənub-Şimal və Şərq-Qərb. Əlbəttə, bu, Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və yeni iş yerlərinin yaradılmasına imkan verir. Biz Cənub-Şimal nəqliyyat dəhlizinin Şərq-Qərb dəhlizi qədər vacib olacağı qənaətindəyik. Bizim üçün onlar bərabər dərəcədə əhəmiyyətlidir. Çünki hər iki dəhliz bizim ərazimizdən keçir.

**- Cənab Prezident, nəzakətinizə və ölkənizlə bağlı məlumat verdiyinizə görə Sizə təşəkkür edir, uğurlar diləyirəm.**

- Sağ olun.

*Reportaj*

# Torpaqların yaralarını da sağaldacağıq!



Vətən müharibəsindən əvvəl bu yüksəklikdə ötərgi yaz yağışı sovuşunca göy üzünün göy qurşağı görünmüşdü. Duyğularım, duyğularıma dirsəklənən düşüncələrim gözə də, könülə də xoş gələn bu görüntüyə sarılmışdı. Mənə elə gəlmişdi ki, bu qənirsiz təmasın cazibəsində ləçəyində şeh görünən çiçəklərin, yarpağında meh görünən ağacların səssiz harayına cavab kimi yüz yerdən, min yerdən Şuşaya sarı "Gəlirik!" deyiləcək...

Həmin yüksəklikdəyik. Həzin-həzin yel əsir. Bu yerlərin əvvəlki görkəmi də dəyişib, mövqedə döyüş növbətçiliyi aparan əsgərlər də dəyişib. Onların da baxışlarında neçə il əvvəl burada, sol tərəfdə "göylərə baş çəkən" dağa baxan əsgərin baxışlarında gördüyüm qətiyyətin eynini görürəm. Bu qətiyyət də kölgəsi kölgələrə qarışan ağacların budaqlarında nəfəs dərən yellərin seyrəkliyindən sıyrılıb qarşı tərəfə baxır. Bu baxışı Azərbaycan əsgərinin qətiyyətini ümumiləşdirən baxış bilirəm. İkinci Qarabağ müharibəsindən əvvəl döyüş növbətçiliyindən qayıdan əsgər demişdi ki, Ali Baş Komandanın döyüş əmrinə buradan qoşulacağıq. Əsgər Şahin Baloğlanov deyir ki, İkinci Qarabağ müharibəsində məktəbdə oxuyurduq. Amma bu yaxınlarda düşmənə qarşı keçirilən "Qisas" cavab əməliyyatında əsgər idik... Əməliyyatda biz də iştirak etmək istəyirdik. İştirakımıza ehtiyac olmadı...

Əsgər Şahin Baloğlanovun fikrini əsgər Rüfət Məmmədov tamamlayır:

- Orta məktəbdə oxuyanda döyüşənlərin sırasına özümüz çata bilməsək də, səsimiz çatırdı. Elə bilirdik ki, biz də qələbə qazananların sırasındayıq. "Qisas" cavab əməliyyatında döyüşə getmək istədik. Hərbi xidmətdə istək olmur, əmr olur. Ordu hissələrimizin qazandığı qələbədə özümüz olmasaq da, ruhumuz iştirak etdi...

Əsgər Samir Alcanovun dedikləri də Rüfət Məmmədovun dediklərinin təsdiqi kimi səslənir:

- "Qisas" cavab əməliyyatında qanunsuz erməni silahlı dəstələrinin bir neçə döyüş mövqeyi, yerləşdiyi ərazilər darmadağın edildi, düşmənə dərs olacaq qədər qeyri-qanuni erməni silahlısı, eləcə də bir neçə artilleriya qurğusu, hərbi nəqliyyat vasitəsi, xeyli döyüş sursatı məhv edildi. Cəmi bir günlük döyüşdə...

Əsgərlərin dedikləri də, düşüncələri də bizə könül xoşluğu verir; kəlmələr digər əsgərlərin düşüncələrini tərpədir. Düşüncələrdə qələbəyə görə gözəl sevinc, qələbəni qazananlara qədərsiz sevgi, əməliyyatda iştirak edə bilməməyə görə hiss edilməsi çətin olmayan incə bir təəssüf də var.

Əsgərlərə deyirəm ki, Vətən müharibəsindən əvvəl ön xətdə, səngərlərin o üzündə budaq-budaq uçunan ağacların xırdaca budaqlarını həsrətdən darılan, bezikən əllərə bənzədərdik. Zəfərdən sonra uzaqdan-uzağa gördüyümüz həmin ərazilərdə həmin ağaclar yoxdu - o ağacları işğaldan qurtuluş döyüşündə məğlub olub geri çəkilən düşmənlər kəsib, adda-budda boy atan, böyüyən şivlərin boyu-buxunu əvvəlki ağacların eyni deyil. 30 il əvvəl əsdiyi kimi əssə də, yellər orada nəfəs dərməyə ağac tapa bilmir...

Əsgərlər duyğulanır. Leytenant Ülvi Sadıqov baxışlarını qarşı yaxadan üzüb döyüş növbətçiliyinə gedən əsgərlərə baxır, inamla "Azərbaycanın ərazi bütövlüyü sizlərə əmanətdi!", - deyir. Kəlmələr zabitin əsgərlərə inamı kimi, sevgisi kimi dinlənilir.

"İşğalçılıq müharibəsi də torpağa görədi, ədalətli müharibə də...", - zabit Yaşar Alıyevin dedikləri gözəl bir söhbətə başlanğıc olur:

- Füzuli işğaldan azad ediləndən sonra kəndlərinə dönən, kəndin evlərini dağılmış görən füzulili ana erməniliyin uçurub-dağıtdığı evinin divarlarına üz sürtür, əli daşları isidir. Evinin, kəndinin görkəmi qəlbini qana döndərsə də, şükranlıqla göy üzünə baxır: "Torpağım bəsdi mənə!", - deyir. Bu kəlmələr Zəfərə görə deyilmişdi, şükranlıq torpağın işğaldan azad edilməsinin şükranlığıydı...



Bu düşüncələri torpaqlarımızın yaralarına məlhəm bilirik. Biz də, əsgərlər də...

Bir qədər aralıdan bir qartal uçur. Qanadları yeri kölgələndirir. Könlümüzü telləndirən bu uçuşu rəmz bilirəm: Yellər əsə bilər, coşa bilər, qayadan heç nə apara bilməz!

Qartal dönür, dövrə vurub uzaqlaşır. Vida uçuşudumu? - duruşu, baxışı, qüruru dağ oğullarla sağollaşıb işğaldan azad edilmiş ərazilərimizə uçacaq?" Kəlbəcərə, Laçına uçacaq yəqin. Neçə-neçə qartalın da qanadları gəriləcək. İşğaldan azad edilmiş ərazilərimizdə xidmət edən əsgərlər qartalların Şişdağda, Qonur dağda, Şahbulaq dağında, Qızılboğaz dağında, Dəlidağda, Qırxqızda, ... bu uçuşunu "Qisas" cavab əməliyyatının iştirakçılarına - o döyüş qartallarına göylərin qartallarının təşəkkürü kimi izləyəcəklər...", - deyirəm. Qaşları çatılan, yumruqları düyünlənən əsgərlər bir boy da dikəlib qarşı yaxaya baxırlar...

Baxışlarımın qartaldan, qartalın uçuşundan üzülmədiyini görən zabit Ülvi Sadıqov əsgərlərə xitabən deyir ki, qartal da illərlə perik düşdüyü doğma göylərinə dönür. Əsgərlərin necə duyğulandığı duyulandır. Bu duyğulanmanın can köynəyi doğmalıq kəlməsidi, şübhəsiz; qartalı göylərinə qaytaran doğmalıq da Azərbaycan əsgərinin qazandığı Zəfərin qüdrətidi...



Zabit Yaşar Alıyev Vətəndən, torpaqdan, İkinci Qarabağ müharibəsindən, Zəfərdən danışır. Əsgərlər tarix dərsi dinləyirmiş kimi dinləyirlər:

- Azərbaycan Ordusu işğala son qoydu. İkinci Qarabağ müharibəsi xalqın müharibəsi idi. Bu müharibə azərbaycançılığın yenilməzliyini təsdiqlədi. Vətən müharibəsində digər məktəblilər kimi siz də ruhən bu müharibənin iştirakçısı olubsunuz.

Əsgər İbrahim Novruzov deyir ki, İkinci Qarabağ müharibəsi başlayanda orta məktəbdə oxuyurdum. Hamımız döyüşlərə getmək niyyəti ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə rayon şöbəsinə müraciət etmişdik. Aparmamışdılar. Yaşımız çatanda hərbi xidmətə çağırıldılar. Bu gün hərbi xidmətdəyik. Füzulili ananın dedikləri hamımızı duyğulandırdı. İllərlə həsrətini çəkdiyi evinin görkəmi qəlbini qanatsa da, torpağına qayıdışına ruhun cana qayıdışı deyən ana hamımızın anasıdı...

Əsgər Nəsimi İsmayılov əyilib bir ovuc torpaq götürür. Baxır. Götürdüyü bir ovuc torpağı boyu bərabərinə qaldırır. - Bunu rəmz bilirik: torpaq Vətənə, dövlətə, dövlətçiliyə sevginin bünövrəsidi, - deyir. Nə gözəl fikirdi! Bu gözəl fikir günümüzün göyqurşağıdı, elə bil...

Zabit Ülvi Sadıqov deyir ki, bu gözəl nizamın yaratdığı ovqatın eyni Vətən müharibəsindən söz düşəndə həmişə yaşanılır. Bu da müqəddəsliyin qüdrətidi...

Günəş bu səhər torpağı isidəndən bəri başlayan söhbətimiz torpağa sevgiylə davam etməkdədi. Elə bu sevginin cazibəsində 1993-cü ilin yayını xatırlayıram, xatırladığımı xatırladıram:

- Zəngilanın Şükürataz yüksəkliyindəydik. Bir tərəfə çəkilib torpağa dirsəklənən əsgərin baxışları uzaqlardan üzülmürdü, incəliklə torpağa sığal çəkirdi. "Nə düşünürsən?", - soruşmuşdum. "Torpağı...", - demişdi. Xatırlatmam bitər-bitməz əsgərlər "Biz də torpağı düşünürük, döyüş növbətçiliyimiz torpaq üçündü...", - deyirlər...

Döyüş növbətçiliyinə gedən əsgərlər də, döyüş növbətçiliyindən qayıdan əsgərlər də general-mayor Polad Həşimovun şəhid olduğu yerdə bir anlığa ayaq saxlayırlar. Bu, ehtiramdı, ali rütbəyə, ali rütbənin timsalında orduya ehtiramdı, şəhidliyə ehtiramdı.

Gün çeşt yerindədi...

- Xalq təbabətinə görə, bağayarpağı yara dərmanıdı - yaranı qaysaqladır, sağaldır. Bağayarpağı bitirən bu torpağın özündə də qüdrət var, - deyirəm. İkinci Qarabağ müharibəsində iştirak etmiş qonşumuz ayağından yaralanıb. O anda sarımaq üçün əlinə heç nə keçməyib. Yaranın üstünə bir ovuc torpaq səpib. Qan kəsib, - əsgər Əligül Ağayev belə deyir. Sözümə qüvvət kimi.

Yadıma düşür ki, İkinci Qarabağ müharibəsindən əvvəl Lələtəpənin ətəyində döyüş növbətçiliyindən qayıdan əsgərlərlə qarşılaşanda gördüklərimiz mənə də, həmkarım Vahid Məhərrəmova da hələ neçə illər yaddaşımızdan üzülməyəcək qürur yaşatmışdı: Əsgər ovucundakı bir ovuc torpaqla kəlmələşirdi, elə bil. Nə deyirdi, eşidəmməzdik. Kövrəldiyini duymaq çətin deyildi. Bu mükaliməlşmə bizə bir gerçəklik də yaşatmışdı: Azərbaycan əsgəri torpağın "dilini bilir"...

Gümanlarımız düzüymüş. Həmin əsgərlə könül söhbətimizdə öyrəndik ki, bu mükaliməlşmə torpağa təsəlli mükaliməlşməsiymiş. Belə mükaliməlşmə inamdı, Vətənə məhəbbətdi, Hərbi Anda, dövlətə, dövlətçiliyə sədaqətdi. Düşündüklərimi deyincə əsgərlərin baxışlarında yerə-göyə sığışmayan bir niyyət görürəm. "Baxışlarınızın nizamına dönən bu niyyətin yozumunda 2020-ci ilin noyabrının qüdrəti də var sanki. O qüdrətdən boy göstərən niyyət də deyir ki, torpağı dinşəyin, torpağın sözünü eşidin, o səsi Vətənin səsi kimi dinləyin...", - deyirəm.

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Gənc əsgərlərin hazırlığı

# “Gənc əsgər hazırlığı bizi bacarıqlı Vətən müdafiəçisi kimi formalaşdırır”

*Müasir silahlardan yüksək səviyyədə istifadə etməyi bacaran, Vətənə sonsuz sevgi ilə bağlı olan, andına sadiq, hərbi sirləri qoruyan, yüksək döyüş ruhunda xidmət edən əsgərlərə malik ordu ən güclü ordudur. Hərbi xidmətə yenicə qədəm qoyan gənc əsgərlərə bütün qoşun növləri üzrə peşəkar səviyyədə təlim keçirilir. Bölmələrdə olan müasir təhsil avadanlıqları və təlim mərkəzləri də bu məşğələlərin səmərəli təşkilinə zəmin yaradır.*

*Həmçinin, peşəsinin incəliklərinə yaxşı bələd olan savadlı və peşəkar komandir heyəti məşğələlərdə gənclərə hərbi bilik və vərdişləri həvəslə öyrədir, onların ixtisaslarına uyğun yüksək döyüş hazırlıqlı Vətən müdafiəçiləri kimi formalaşması üçün bütün bilik və təcrübələrini səylə səfərbər edir.*

*"N" hərbi hissəsində ezamiyyətdə olan əməkdaşlarımız bu təlim kursunun aşıladığı nəzəri və praktik vərdişləri, həmçinin, digər müsbət keyfiyyətləri gənc əsgərlərin öz dilindən öyrəniblər. Hər biri içdikləri Hərbi anda sadiq qalaraq, Vətənimizin müdafiəsində inamla, qətiyyətlə dayanmağa hazır olduqlarını əminliklə bildiriblər.*

"Azərbaycan Ordusu"

**Əsgər Ramil Babayev:**

- Orta məktəbdə oxuyanda hər kəs bir peşə seçmişdi. Hərəmizin bir peşəyə marağımız olsa da, hamımızı bir amal birləşdirirdi: əsgər olacağıq, Vətənə xidmət edəcəyik! Həm də nümunəvi xidmətimizlə ailəmizə, təhsil aldığımız məktəbin müəllimlərinə başucalığı gətirəcəyik...



Hərbi xidmətə çağırıldıq. Digər çağırışçılar kimi, biz də gənc əsgər hazırlığına cəlb olunduq. Hazırlıq müddətində hərbi xidmətin sirlərini, Hərbi Nizamnamələri, silahlanmamızda olan atıcı silahların atış xüsusiyyətlərini, proqramda nəzərdə tutulan digər hərbi bilikləri öyrənirik. Öyrədilənləri böyük məsuliyyətlə mənimsəyirik. Yadımdadır ki, bəzi mövzuları mənimsəməyə çətinlik çəkəndə zabitlər onu təkrarən həvəslə izah edirdilər və bundan heç yorulmurdular. Hərdən suallarımız da olurdu, onlar suallarımıza da ətraflı cavablar verirdilər.

Mən atıcı ixtisasına təyin olundum, təhkim olunan silahım isə “AK-74” avtomatıdır. Artıq silahımın atış xüsusiyyətlərini mükəmməl mənimsəmişəm. Sərbəst olaraq avtomatımı söküb-yığmağa, hissə və mexanizmlərinin iş prinsipinə yaxşı bələdəm. Öyrəndiklərimlə kifayətlənmir, bildiklərimi hər gün daha da təkmilləşdirirəm. Komandirimiz kapitan Müşviq Əliyev "dilini bilmədiyi silah əsgər üçün ağır yükə çevrilir", - deyirdi. Bu sözü heç vaxt unutmaram. Qürurlanıram ki, silahım mənə ağır yük yox, hər bir özəlliyinə yaxşı bələd olduğum ən yaxın dostum olacaq.

Yaxın vaxtlarda qoşunlarda xidmətə göndəriləcəyik. Nümunəvi xidmətimizi orada da davam etdirmək, hərbi vəzifələrimizi mükəmməl yerinə yetirmək hər birimizin həm hərbçi, həm də vətəndaşlıq borcumuzdur...

**Əsgər Orxan Nəcəfli:**

- "Oğul düşmən çəpəridir", "Yurdu qorumaq hər birimizin müqəddəs borcudur" - hər iki deyim, hər iki fikir Vətənlə, torpaqla bağlıdır. Deməli, torpaq da, Vətən də müqəddəsdir. Bu müqəddəsliyin mayasında bir mübarizə, bir zəfər var. Mən əsgər kimi hərbi xidmətə zəfər və mübarizə əzmi ilə gəlmişəm. Təbiidir ki, mübarizə aparmaq, zəfər qazanmaq üçün döyüş hazırlığının yüksək olması vacib şərtlərdən biridir. Bir neçə həftədir ki, Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirmək üçün ordu sıralarına çağırılmışam. Biz gənc əsgərlər xidmətdə ilk addımlarımızı atırıq. Müdriklər gözəl deyib ki, ilk addım həmişə çətin olur. Amma zaman keç-



dikcə bu çətinlik ötüb arxada qalır. Artıq komandirlərimizin köməkliyi ilə hərbi bilik və vərdişləri öyrənə-öyrənə bu mərhələni keçmişik. Onların dərsləri həvəslə öyrətməsi bizə ruh yüksəkliyi aşılayır və hərbi xidmətə marağımızı daha da artır. Qürur hissi keçiririk ki, qalib ordunun sıralarında xidmət edirik.

İxtisasım qumbaraatandır. Təlim müddətində təcrübəli komandirlərimiz qumbaraatan silahının taktiki-texniki xüsusiyyətlərini öyrədirlər. Silahımın təyinatını, atış qaydalarını böyük həvəslə mənimsəyirəm. Qumbaraatanla düşmənin həm döyüş texnikalarını, həm də canlı qüvvəsini məhv etmək mümkündür. Zaman keçdikcə bu silahın sirlərini daha da dərindən öyrənəcək, təlim və məşğələlərdə müsbət nəticələr əldə edəcəyəm.



**Əsgər Musa Əhmədov:**

- Yaxın dostlarım ordu sıralarına gedəndə onlara həsədlə baxırdım. Belə xoşbəxt bir günün mənim də qapımı döyəcəyini böyük intizarla gözləyirdim. Yay günlərinin birində ordu sıralarına çağırıldım. Əynimə hərbi forma geyinərək ürəkdən, qəlbdən bağlandığım Vətənimə əsgər oldum.

Təntənəli surətdə Hərbi andı qəbul etdiyimiz günü heç vaxt yaddan çıxarmayacam. Çünki həmin gün çox xoşbəxt anlar yaşadım. Hərbi and bizim üçün çox müqəddəsdir. Xidmətimin sonunadək içdiyim anda sadiq qalacam, yurdumuzu göz bəbəyim kimi qoruyacağam.

Xidmətimin bir aydan çoxu arxada qalıb. Bu müddət mənim üçün səmərəli keçib. Təcrübəli zabitlər bizə dərs və məşğələlər keçir, silahların taktiki-texniki xüsusiyyətlərini öyrədirlər. Pulemyotçuyam. Artıq bu silahın taktiki-texniki xüsusiyyətlərinə yaxşı bələdəm.

**Əsgər Həsən Zahirli:**

- Hər birimiz uşaqlıqdan əsgər olmaq haqqında düşünərək böyümüşük. İkinci Qarabağ müharibəsində qazanılan Zəfərdən biz də qürurlanmışdıq. İndi daha böyük



duyğularla qürurlanırıq. Çünki bu gün əsgərik.

Gənc əsgər hazırlığını böyük məsuliyyətlə keçirik. Zabitlər və gizirlərin öyrətdiklərini maraqla mənimsəyirik. Əslində, bu maraqdan daha çox hərbi vəzifələri öyrənmə prosesidir. Rəşadətli ordunun əsgəri olmaq bizim öyrənmək həvəsimizin stimuludur.

Gənc əsgər hazırlığı bizi bacarıqlı Vətən müdafiəçisi kimi formalaşdırır. Burada bizə təhkim olunan silahların xüsusiyyətlərini mükəmməl öyrənir, öyrəndiklərimizi təlimlərdə təkmilləşdiririk. Həmçinin təyin olunduğumuz ixtisas üzrə də biliklərə yiyələnirik. Yaxın vaxtlarda qoşunlarda hərbi xidmətə göndəriləcəyik. Rabitəçiyəm. Bu ixtisasın əhəmiyyətini və vacibliyini hərbi xidmətdən öncə dərk etmişdim. Qonşumuz İkinci Qarabağ müharibəsində rabitəçi olub. Qələ-



bədən sonra onun döyüş təəssüratlarını maraqla dinləyirdim. O deyirdi ki, döyüşdə bütün manevrlər, yerdəyişmələr, əmrlər, hücumlar rabitəçilər vasitəsilə həyata keçirilir. Yəni, rabitəçi bütün döyüşlərin iştirakçısı olur.

Digər əsgər yoldaşlarım kimi mənə də təlimlərdə rabitəçi ixtisasının incəliklərini öyrənirəm. Bizə dərs keçən komandirlərimizi əmin edirəm ki, qoşunlarda nümunəvi xidmətimizlə həmişə fərqlənəcəyik.

**Əsgər Samir Şıxıyev:**

- "Bilsin ana torpaq, eşitsin Vətən! Müsəlləh əsgərəm mən də bu gündən". Böyük şairimiz Səməd Vurğunun "Vətən keşiyində" şeirindən götürülən bu misralar sanki bu gün üçün yazılıb. Artıq Hərbi andı qəbul edərək güclü ordumuzun sıralarına ilk qədəmlərimizi qoymuşuq. Bu şərəfli və məsuliyyətli yolda uğurların bizi gözlədiyini bilirəm. Komandirlərimiz bizlərin hərbi ixtisaslarımıza uyğun biliklərə tez bir zamanda yiyələnməyimiz üçün əllərindən gələni edirlər. İxtisasım tuşlayıcı olduğu üçün üzərimə böyük məsuliyyət düşür.



Hədəfi dəqiq nişan almağın sirlərini artıq öyrənmişəm. Bu gün gənc əsgər olsam da, Ali Baş Komandanımızın istənilən döyüş tapşırığını hər an icra etməyə hazıram.

**Əsgər Uğur Mirzəzadə:**

- Səmərəli keçirilən dərslər və komandirlərimizin zəhməti sayəsində yüksək döyüş hazırlığına malik əsgərlər kimi formalaşırıq. Qalib ordumuzun sıralarında xidmət etdiyim üçün çox qürurluyam. Vətən müharibəsinə qatıla bilməsəm də, döyüşlərin gedişatını kütləvi informasiya vasitələrindən daim izləyirdim. Rəşadətli ordumuzun hər gün daha da irəlilədiyi xəbərini eşitmək hər həs kimi məni də sevindirirdi. Ali Baş Komandanımızın rəhbərliyi ilə başlanan haqq savaşımız güclü ordumuz tərəfindən qələbə ilə sonlandırıldı. Sevinirəm ki, artıq mən də güclü və qalib ordunun əsgəriyəm. Burada hər birimiz müəyyən ixtisaslar üzrə müvafiq bölmələrdə yerləşdirilmişik. Mən artilleriya bölməsinə təyin olunmuşam. Artıq ixtisasım üzrə müəyyən nəzəri və praktiki biliklərə yiyələnmişəm. Keçirilən dərsləri hər birimiz böyük maraqla dinləyir, öyrəndiklərimizi təlim mərkəzində praktiki olaraq bacarıqla icra edirik.

Qeyd edim ki, hər birimiz üzərimizə düşən məsuliyyəti dərk edir, daim hərbi biliklərimizi artırmaq və möhkəmləmək üçün səy göstəririk. Xalqımız əmin olsun ki, Vətənimizi göz bəbəyimiz kimi qoruyacaq, qalib əsgər adını hər zaman uca tutacağıq.

Tarix yazan oğullar

# Əsrlərə sığmayacaq şərəf dolu ömür yolu



*Gün günortanı keçsə də, havanın istisi davam edirdi. Bir az iti addımlarla gedirəm ki, gecikməyim, deyilən vaxt təyin olunmuş yerə çatım. Ötən gün şəhid anası Mehriban Qurbanova ilə telefonla danışmışdıq ki, görüşüb, İkinci Qarabağ müharibəsində yurdumuzun azadlığı uğrunda canından keçən oğlu Murad haqqında söhbət edək. Bir müddətdən sonra axtardığım ünvanı tapdım.*

Evin qapısı açıq idi. Asta səslə Mehriban xanımı səslədim. Bir-iki dəqiqə sonra Mehriban xanım göründü. Əl verib ehtiramla görüşdük. Kövrək addımlarla yurdumuzun azadlığı uğrunda şəhid olmuş Muradın bir vaxtlar yaşadığı evə daxil oldum. Divarlara Muradın hərbi formada olan müxtəlif ölçülərdə böyüdülmüş şəkilləri vurulub. Şəkil o qədər canlı çəkilib ki, sanki bu dəqiqə dil açıb bizimlə danışacaq, əl uzadıb görüşəcək.

Şəhid Murad Qurbanovun xatirəsini özündə yaşadan albomlara və bu albomlardakı şəkillərə baxa-baxa Mehriban xanımla yaxından tanış olduq. Mehriban Qurbanova uzun illərdir Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səbail rayon İdarəsində çalışır. Oğlu Muradı da elə buradan müharibəyə yola salıb.

Mehriban xanım söhbətin yönümünü oğlunun ömür və döyüş yoluna kökləyir. Muradın tərcümeyi-halından sətir-sətir söz açır. Şəhid anası danışdıqca cəsur Vətən oğlunun ömür yolu gözlərimiz qarşısında oxunmamış maraqlı bir kitab kimi səhifələnir. Öyrəndim ki, Murad Qurbanov 23 mart 1996-cı ildə Salyan rayonunda dünyaya göz açıb. Birinci sinfə rayondakı 2 nömrəli orta məktəbdə gedib. Bir ildən sonra ailə vəziyyəti ilə əlaqədar Bakı şəhərinə köçüblər. Murad təhsilini 20-ci sahədə yerləşən 51 nömrəli məktəbdə davam etdirib. Orta təhsilini bitirdikdən sonra Bakı Maliyyə-İqtisad Kollecinə qəbul olub. Kolleci başa vurduqdan sonra 2015-ci ildə ordu sıralarına yollanıb. Cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birində xidmət edib. İlk günlərdən silah və hərbi texnikanın sirlərini həvəslə öyrənib, təlim-məşqlərdə döyüş vərdişlərinə mükəmməl yiyələnib. Bacarığı ilə bölüyün fərqlənən əsgərlərindən biri olub. Əsgəri xidməti dövründə Murad ordumuzun böyük uğuru ilə başa çatan Aprel döyüşlərində də iştirak edib. Onun xidmət etdiyi bölük Tərtər və Goranboy rayonlarının müdafiəsində dayanıb. Əsgər kimi üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlib. 2017-ci ildə xidmətini başa vuraraq, ordu sıralarından tərxis olunub. 2020-ci il avqustun 20-də sevib-seçdiyi Nəzrin xanımla nişanlanıb. Ailə yavaş-yavaş toya hazırlaşmağa başlayıb. Murad arzusuna, istəyinə çatacağı, xoşbəxt anlarını yaşayacağı günü intizarla gözləyib...

Əks-hücum əməliyyatı ilə başlayan İkinci Qarabağ müharibəsi Murad Qurbanovun da planlarını dəyişdi. Toya hazırlaşmaq işləri təxirə salındı. Çünki doğma yurda düşmən hücumu, yağı təcavüzü başlamışdı. Ürəyi Vətən sevgisi ilə döyünən Murad belə çətin günlərdə yalnız şəxsi həyatını düşünə, öz qayğıları ilə yaşaya bilməzdi.Müharibənin başladığı ilk gündən Murad könüllü olaraq döyüşə can atırdı. Qarabağa yollanmaq, erməni qəsbkarları ilə vuruşmaq, şəhidlərin qisasını almaq üçün tələsirdi. Murad istəyinə 2020-ci il sentyabrın 29-da çatdı. Bir neçə gündən sonra onun zəngi cəbhə xəttindən gəldi. Əvvəlcə döyüşmək üçün onları Füzuli istiqamətinə, beş-altı gündən sonra Cəbrayıl rayonu uğrunda gedən döyüşlərə, oktyabrın 7-də isə gərgin döyüşlər gedən Xocavəndə gətirdilər. Muradgil Hadrut qəsəbəsinin azadlığı uğrunda vuruşdular. Həmin günlər Azərbaycan Ordusu düşməni addım-addım geri oturdaraq torpaqları azad edirdi. Muradın başı nə qədər döyüşlərə qarışsa da, vaxtaşırı evə zəng vuraraq, anasına sağ-salamat olduğunu deyirdi. Oktyabrın 10-dan sonra telefon susdu, doğmalarına Muraddan zəng gəlmədi. Ayın 12-də isə Muradın torpaqlarımızın azadlığı uğrunda şəhid olduğu xəbərini aldılar. Ertəsi gün - oktyabrın 13-də Murad böyük izdihamla Səbail rayon Badamdar qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırıldı. Murad qısa, amma mənalı, əsrlərə sığmayan şərəf dolu bir ömür yaşadı.

Kövrək duyğulara köklənmiş şəhid anası oğlunu xatırladıqca fikirlərini bölüşürdü:

- Murad çox mehriban, qayğıkeş və dəcəl bir uşaq idi. Ürəyi həyat eşqi ilə dolub-daşırdı. Uşaqlığı dəcəlliklər içində keçmişdi. Həm hərbi xidmət, həm də ömür yolunda qazandığı təcrübə hiss olunmadan onu gələcək həyata hazırlayırdı. İllər keçdikcə dəcəlliyi arxada qalır, ömür yolunu nizama salırdı. Sabaha böyük ümidlərlə baxan Murad artıq ailə qurmaq üçün ilk addımlarını atmışdı. Özünə həyat yoldaşı seçmişdi, nişanlanmışdı. Vətən müharibəsinin başladığını eşidəndə dedi ki, torpaqlarımız uğrunda gedən döyüşlərə qatılacağam. Elə bu amalla da sentyabrın 29-da gecə saat üç radələrində onu döyüşən ordunun sıralarına yola saldım. Ertəsi gün aparıldığı hərbi hissəyə getmişdim. Artıq əsgər forması geyinmişdi, gur saçlarını qırxmışdılar. Hələ mənimlə zarafat edərək "Heyf saçlarımdan", - dedi. Onunla sağollaşanda dedi ki, döyüşlərdən sonra qələbə ilə qayıdacağam. Bu, mənim oğlumla son görüşüm oldu.

- Muradı döyüşə yola saladan sonra gözümüz yolda, qulağımız səsdə qaldı. Teztez zəng vurub iştirakçısı olduğu döyüşlərdən, azad etdikləri şəhər və kəndlərdən, qazandığı uğurlardan danışırdı. Ondan zəfər dolu sözləri eşitdikcə sevinirdik. Amma təəssüf ki, sevincimiz uzun sürmədi. Oktyabrın 10-da ondan son mesaj gəldi - "Nigaran qalmayın, mən sağ-salamatam". Oktyabrın 12-də iş yoldaşlarım dedilər ki, sizin ünvanınıza şəhid gətirirlər. Bu xəbəri eşidəndə az qaldı ki, həyəcandan ağlım başımdan çıxsın. Sonra dedilər ki, şəhid olan sənin oğlun deyil, Əli Tağıyev adlı bir əsgərdir. O da bizim küçəmizdə yaşayırdı. Əli üçün üzüldüm, göz yaşı tökdüm. Allah Muradımı, onun timsalında bütün əsgərləri qorusun dedim. Amma



həmin gün axşam saat yeddi radələrində qapımızı bəd xəbər döydü: Murad Hadrut uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdı. Murad döyüşlərdən qayıtmışdı. Bu dəfə evimizə yox, əbədi olaraq könüllərə, qəlblərə və ürəklərə qayıtmışdı. Düşmən mərmisindən qopan qəlpə oğlumun ürəyindən dəymişdi. Oktyabrın 13-də Muradı ictimaiyyətin böyük izdihamı ilə torpağa tapşırdıq. Oğlum sağ vaxtı da həmişə başımızı uca etmişdi, ölümü ilə də bir daha bizi yüksəkliklərə qaldırdı. Övladımın xatirəsini əziz tutanların hamısına minnətdarlığımı bildirirəm. 51 nömrəli məktəbdə Muradın büstü qoyulub. Təhsil ocağının önünə xatirə lövhəsi vurulub. Bütün bunları görəndə az da olsa təskinlik tapırıq.

Bacısı İlahə Qurbanova da qardaşını kövrək hisslərlə xatırladı:

- Qardaşım haqqında keçmiş zamanda danışmaq istəməzdim. Çünki onun ölümünə hələ də inanmıram. Uşaqlığımız çox şən keçib. Anam bizi ərköyün böyüdüb. Özü əziyyət çəksə də, atasızlığı bizə hiss etdirməyib. Müharibənin başladığını eşidəndə Murad dedi ki, mən döyüşlərə gedəcəm. Xasiyyətinə yaxşı bələd idim. Bilirdim ki, əgər Murad dedisə, mütləq gedəcək. Getdi də. Vaxt tapdıqca cəbhədən zəng vurub anamla da, mənimlə də danışırdı. Oktyabrın 10-dan sonra zənglərinin arası kəsildi. Narahatçılığımıza son qoymaq üçün nömrəsini yığdım. Telefonunu başqa bir əsgər açdı. Qardaşımı soruşanda dedi ki, hansı Muradı deyirsiniz? Mən qardaşımın soyadını, seçilən əlamətlərini nişan verdim. Əsgər dedi ki, şəhid şəkilləri göndərəcəm, görün qardaşınız hansıdır. İki-üç dəqiqə sonra telefonuma şəhid şəkilləri göndərdilər. Çox təəssüflər ki, şəkildəki şəhidlərdən biri qardaşım idi. Həmin anda keçirdiyim sarsıntını sözlə ifadə etmək çox çətindir. Dünyalarca sevdiyim qardaşım yurdumuzun azadlığı uğrunda şəhid olmuşdu. Bir evin oğlundan, bir elin oğluna çevrilmişdi. O, övladlarım Firdovsini də, Gülçiçəyi də çox istəyirdi. Murad qəlbimizdə elə bu cür istəkli də qalacaq. Vətən uğrunda şəhid olmuş qardaşımla həmişə fəxr edəcəyəm...

Bu məqamda söhbətimizə üç nöqtə qoyub doğmaları ilə evlərində Muradın xatirəsinə düzəldilmiş guşəyə baxırıq. Buradakı əşyalarda onun pozulmaz izləri var. Muradın nişan üzüyü də guşəyə qoyulub. Mehriban xanım dedi ki, oğlumun nişanlısına aldığım üzüyü geri almadım. Qoy o üzük həmişəlik olaraq Nəzrində Muraddan xatirə qalsın. Guşədəki medalların vəsiqələrinə baxanda öyrəndik ki, İkinci Qarabağ müharibəsində göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.

Muradın adını dilimizə gətirəndə gözlərimiz önündə "Ağ atlı oğlan" filmindəki balaca Murad canlandı. O Murad ki, valideynlərindən xəbərsiz cəbhə bölgəsinə yollanıb. Gedib ki, yurdu qoruyan döyüşçülərə qoşulsun, onlara kömək etsin. Belə duyğulu anlarda düşünürəm ki, bəlkə də ömür və döyüş yolu haqqında söhbət açdığımız Murad Qurbanov elə kinodakı həmin Muraddır. Böyüyüb, silaha sarılaraq döyüşlərə yollanıb. Döyüşüb, vuruşub, erməni qəsbkarlarını məhv edərək qələbə qazanıb, torpaqlarımızı işğalçılardan təmizləyənlərin sırasında olub.

Oğul və qardaş itkisi ilə yaşayan bu kövrək insanlarla sağollaşdıq. İlahə xanım bizi bir anlıq yoldan saxlayıb başımızın üstündəki işığı göstərərək dedi ki, bunu Murad döyüşlərə getməzdən bir az əvvəl boya qabından düzəltmişdi. İndi hər axşam biz "Muradın işığı"nın ətrafına yığışırıq. İki ildir ki, bu işıq qaranlıqlara nur çiləyir. Evdən addım-addım uzaqlaşdıqca fikirləşirəm ki, "Muradın işığı" heç vaxt sönməyəcək, tükənməyəcək. Bu işıq təkcə qaranlıqları deyil, doğmalarının ürəklərini də, qəlblərini də daim işıqlandıracaq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Ermənilərin əzəli Azərbaycan torpaqlarını erməniləşdirməsi siyasəti

**Suallar:**

**1. Ermənilərin əzəli Azərbaycan torpaqlarını erməniləşdirməsi siyasətinin formalaşması tarixi.**

**2. XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişə və tarixi ədalətin bərpası uğrunda mübarizə.**

## Ermənilərin əzəli Azərbaycan torpaqlarını erməniləşdirməsi siyasətinin formalaşması tarixi

Yerləşdiyi coğrafi əhəmiyyətinə və enerji mənbəyinə görə "Avrasiyanın dayaq nöqtəsi" kimi xarakterizə olunan, eyni zamanda, tarixən geosiyasi maraqların toqquşduğu bölgə olan Cənubi Qafqaza əsrlər boyu imperialist güclər sahib olmağı hədəfləmiş və bu yolda təhlükəli silah kimi başlıca rol oynayan ermənilərdən istifadə etmişlər. Ermənilər ənənəvi olaraq özlərinə havadarlar tapmış, regionda yad qüvvələrin maraqlarına qulluq edərək, qonşularını satmış, bunun müqabilində isə özlərinə müxtəlif mükafatlar, yeni-yeni ərazilər, var-dövlət almışlar.

"Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi var. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni ideoloqlarının uydurduğu "dənizdən-dənizə Ermənistan" dövləti qurmaqdır. Bu məqsədlə mərhələlərlə həyata keçirilən terror və soyqırım siyasətinin qanlı fəsadları Azərbaycan xalqının qan yaddaşında dərin izlər buraxmışdır.

Çar Rusiyası XVIII əsrin sonlarından Azərbaycanın Xəzəryanı torpaqlarını İmperiyanın tabeliyinə daxil etməyə başladı. XIX əsrin əvvəllərində I Pyotrun erməniləri Cənubi Qafqaza - Şimali Azərbaycan torpaqlarına köçürmək siyasətinə start verildi. Çar Rusiyası tərəfindən ermənilərin XIX əsrin ilk qərinəsində Şimali Azərbaycan torpaqlarına köçürülməsini iki mərhələyə ayırmaq olar: 1801-1828-ci il Türkmənçay müqaviləsinədək olan dövr və Türkmənçay müqaviləsindən sonrakı ilk illər.

1801-1828-ci illərdə çar Rusiyası tərəfindən ermənilərin Şimali Azərbaycana köçürülməsi, əzəli Azərbaycan torpaqlarını erməniləşdirilməsi siyasəti işğal prosesi ilə paralel getmişdi. 1804-cü ilin yanvarında ermənilərin də yaxından iştirakı ilə Gəncə xanlığı süquta uğradı. 1805-ci il mayın 14-də Qarabağ, 21-də isə Şəki xanlıqları ilə onların çar Rusiyasının himayəsinə keçməsi haqqında Kürəkçay müqavilələri imzalandı. Dekabr ayında isə Şirvan xanlığı ilə belə bir müqavilə imzalandı. 1806-cı ildə Dərbənd, Quba və Bakı xanlıqları, 1813-cü ildə Talış xanlığı ilhaq edildi. Çar Rusiyası, eyni zamanda, Qacarlar dövləti ilə (1804-1813) aparılan müharibənin sonunda bağlanan Gülüstan müqaviləsinə əsasən, Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla, Şimali Azərbaycan torpaqlarını ələ keçirdi. Qafqazdakı rus qoşunlarının baş komandanı general P.D.Sisianov Gəncə, Qarabağ, Şəki, Şirvan və digər Şimali Azərbaycan torpaqlarına ermənilərin köçürülməsində xüsusi fəallıq göstərirdi. Bu hal Şəki (1819), Şirvan (1820) və Qarabağ (1822) xanlıqlarının ləğvindən sonra daha da geniş miqyas aldı.

1804-1813-cü illərdə çar Rusiyası-Qacarlar və elə həmin dövrdə gedən çar Rusiyası-Osmanlı müharibəsi (1806-1812) çar Rusiyasının Azərbaycan torpaqlarının zəbt edilməsi planlarına son qoymadı. 1826-cı ildə çar Rusiyası Qacarlar dövləti ilə yeni müharibəyə (1826-1828) başladı. Qeyd edilən müharibə Türkmənçay müqaviləsi ilə nəticələndi və həmin müqaviləyə görə, İrəvan və Naxçıvan xanlıqları da (210 min kv.km ərazisi İrana, 130 min kv.km. ərazisi isə Rusiyaya) çar Rusiyasının nəzarətinə keçdi. Osmanlı dövləti ilə çar Rusiyası arasında aparılan 1828-1929-cu illər müharibəsinin sonunda isə, Ədirnə sülh müqaviləsi bağlanıldı.

Müharibələr nəticəsində Azərbaycanın ərazisi və xalqı iki yerə bölündü. Şimali Azərbaycan əraziləri süni bölgüləre məruz qalaraq Rusiya imperiyası tərkibində müxtəlif inzibati hissələrə parçalandı. Sonuncu inzibati bölgüyə əsasən Bakı, Yelizavetpol, İrəvan quberniyaları və Zaqatala mahalına bölündü. Ermənistanın 1988-ci ildən etibarən əsassız iddia irəli sürdüyü "Dağlıq Qarabağ" ərazisi o vaxt Yelizavetpol quberniyasına daxil idi. Ələ keçirdiyi ərazilərdə müstəmləkə siyasətini həyata keçirən çarizmin istifadə etdiyi üsullardan biri digər xalqların regiona köçürülərək azərbaycanlılara məxsus torpaqlara yerləşdirilməsi idi. Yerləşdirmədə üstünlük ermənilərə verildi. Bu da səbəbsiz deyildi. Dövlətləri olmadığından, Şərqdə daim başqa hakimiyyət altında yaşayan, region xalqlarının psixologiyasını, dillərini yaxşı bilən, adət-ənənələrinə dərindən bələd olan, şəraitə daha tez uyğunlaşan və itaətkar ermənilər bu işə digərlərindən daha münasib idilər. 1828-1830-cu illərdə Cənubi Qafqaza Qacarlar (İran) dövlətindən 40 min və Osmanlı imperiyasından (Türkiyə) 90 minə yaxın erməni Yelizavetpol və İrəvan quberniyasında ən yaxşı torpaqlarda ("Dağlıq Qarabağ") və Göyçə gölünün sahillərində məskunlaşdırıldı.

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinin növbəti dalğası XIX əsrin ikinci yarısında oldu. Osmanlı ərazisində hökumət əleyhinə baş verən qiyam yatırıldıqdan sonra "Daşnaksütyun" və digər erməni təşkilatları tərəfindən zülm edilən 35-60 min erməni Şimali Azərbaycana yerləşdirildi. Əgər məskunlaşma nəticəsində 1873-cü ildə Yelizavetpol quberniyasında 100 min erməni yaşayırdısa, 1886-cı ildə onların sayı 259 min nəfərə çatdırıldı. Erməniləri yerləşdirməklə çarizm Cənubi Qafqazda etnik-milli ziddiyyətlərin, münaqişələrin və axıdılan qanların toxumunu səpdi. "Hnçak" (Zəng), "Daşnaksütyun" (İttifaq) və s. terror təşkilat və komitələri quruldu. Xəzər dənizi, Qara dəniz və Aralıq dənizi arasında tarixdə heç bir zaman olmayan "Böyük Ermənistan" ideyası ermənilər üçün uyduruldu. Məqsədə nail olmaq üçün əsas vasitə terror seçildi. Mövqeləri möhkəmlənən ermənilər yerli xalqlara düşmən münasibəti bəsləyərək onları sıxışdırmağa başladılar. Sosial-iqtisadi, siyasi, milli və dini ziddiyyətlər yarandı.

Çar Rusiyasının himayəsi altında erməni dövlətinin yaradılması, həmçinin ermənilərin Qacarlar (İran) və Osmanlı (Türkiyə) dövlətlərindən çar Rusiyasının zəbt etdiyi torpaqlara köçürülməsi təsadüfi hadisə olmayıb, erməni-rus münasibətlərinin qanunauyğun nəticəsi idi. Bu münasibətlərin əsasını yalnız ticarət əlaqələri deyil, başlıca olaraq ermənilərin Şərqin müsəlman dövlətlərinə, xüsusilə Türkiyəyə, XVIII əsrdən etibarən isə həm də Azərbaycana qarşı düşmənçilik münasibəti təşkil edirdi.

## XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişə və tarixi ədalətin bərpası uğrunda mübarizə

Azərbaycan ərazilərinə ermənilərin yerləşdirilməsi XX əsrin əvvəllərində də davam etdirildi. 1904-1905-ci illərdə qonşu ölkələrdən 45 min erməni Cənubi Qafqaza gətirilərək məskunlaşdırıldı. Ermənilərin yerli əhaliyə nifrəti böhranlı anlarda açıq düşmənçiliyə çevrildi. 1905-1907-ci illər Rusiyada baş vermiş inqilabın gedişində çarizmin təhriki ilə erməni-azərbaycanlı qırğınları (İrəvan) törədildi. "Daşnaksütyun"un yaratdığı xüsusi silahlı dəstələr Bakıda, Qarabağda və digər ərazilərdə azərbaycanlılara qarşı soyqırımlar törətdilər.

Ermənilərin azərbaycanlılara məxsus torpaqlara yerləşdirilməsi və törətdikləri kütləvi qırğınlarda növbəti mərhələ Birinci Dünya müharibəsi illəri oldu. Çarizm müharibə illərində "Türkiyədə yaşayan qardaşlarının azad edilməsi" şüarı altında erməni silahlı dəstələrini Osmanlı ərazisi, Cənubi Azərbaycan və Cənubi Qafqazda formalaşdıraraq Rusiya ordusunun cərgələrini doldurdu. Bu dəstələr Anadoluda və Cənubi Azərbaycanda dinc türk əhaliyə qarşı kütləvi qırğınlar törətdilər. Müharibə illərində (1915) Türkiyədən gətirilmiş 100 min, İrandan 120 min erməninin Cənubi Qafqaza məskunlaşdırılması yenə də azərbaycanlılara məxsus torpaqlarda həyata keçirildi. Onlar əsasən Naxçıvan, Sürməli, Eçmiadzin, İrəvan və Yelizavetpolda yerləşdirilmişlər. 1915-ci ildə İrandan və Türkiyədən Eçmiadzinə köçürülən ermənilərin sayı 60 mindən çox idi. Həmin illərdə İrəvan quberniyasına 120 min, Şuşa və Cavanşir qəzalarına 25 min erməni yerləşdirildi.

1917-ci ildə Rusiyada baş vermiş Oktyabr inqilabın nəticəsində, milliyyətcə erməni olan Stepan Şaumyanın başçılıq etdiyi bolşevik hakimiyyəti Bakı quberniyasında hakimiyyəti ələ keçirmişdi. Erməni millətçiləri həmin vaxt etiraf edirdilər ki, Bakı Sovetinin ordusunun yalnız adı sovetlərin siyahısındadır, əslində həmin ordu Erməni Milli Şurasına tabe idi. Belə vəziyyətdən istifadə edərək Bakı Soveti və Daşnaksütyundan olan erməni silahlı dəstələri 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törətdilər. Bu dəhşətli soyqırım nəticəsində 1918-ci il ərzində 40 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür.

Çar Rusiyasının süqutunun ardınca, İrəvan quberniyasının ərazisində erməni dövləti yaradılmışdı, Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən, Qərbi Zəngəzur, Qazax qəzasının dağlıq hissəsi və Naxçıvanın bəzi kəndləri Ermənistana verilmiş və nəticədə onun ərazisi 9 min kv.km-dən 29,8 min kv.km-ə çatdırılmışdır.

Ermənistan ərazisində ata-baba torpaqlarında yaşayan yüz minlərlə azərbaycanlılara muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində sayı onlardan dəfələrlə az olan ermənilər üçün 1923-cü ildə "Qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti" təşkil edildi. Beləliklə, erməni millətçilərinin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün meydan açılmış oldu və Cənubi Qafqazda baş verəcək yeni faciələrin əsası qoyuldu.

Azərbaycanlılar 1905-1906-cı, 1918-1920-ci illərdə olduğu kimi 1948-1953-cü illərdə də indiki Ermənistan ərazisindən məqsədyönlü şəkildə didərgin salınıb və deportasiya ediliblər. Yalnız 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki tarixi yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunub. Bu zaman onların bir hissəsi, xüsusilə qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi iztirablara dözməyərək həlak olub.

Nəhayət, son sıxışdırma və təcavüz dalğası XX əsrin sonlarında başladı. 1988-1994-cü illərdə erməni millətçilərinin məskunlaşdıqları ərazilərdə "Böyük Ermənistan" yaratmaq istəkləri Azərbaycan xalqının əzəli torpaqlarından qovulmasına və kütləvi insan itkilərinə məruz qalması ilə nəticələdi. Əsrin əvvəllərində olduğu kimi sonlarında da ermənilərin azərbaycanlılara qarşı ən qanlı cinayətlərdən biri, azərbaycanlıların kütləvi soyqırımını - Xocalı faciəsini törətdilər. Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl Bağanis-Ayrım, İmarət Qərvənd, Tuğ, Sələkətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Yalnız bunu qeyd etmək kifayətdir ki, Xocalı soyqırımından bir neçə gün əvvəl - 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalıb.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tarixi torpaqlarımızın Ermənistan tərəfindən işğalı haqqında demişdir: "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir... Azərbaycan öz torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir."

Qüdrətli Azərbaycan dövləti, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ətrafında yumruq kimi birləşən xalq 44 gün ərzində Ermənistan ordusunu darmadağın edərək, illərin həsrətini sonlandırdı, düşmənə sarsıdıcı zərbə vuraraq ulu öndər Heydər Əliyevin illər öncə dediyi sözləri təsdiqlədi.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# “Qazandığımız qələbələri şəhidlərimizə həsr etdik”







Qardaş Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunları başa çatdı. Yarışda idmanın 24 növü üzrə 56 ölkədən 4 mindən çox atlet iştirak etdi. Gərgin mübarizə şəraitində keçən yarışda idmançılarımız 99 medal qazandı ki, onlardan 29-u qızıl oldu. Ölkəmiz ümumi xal hesabı ilə dördüncü yerdə qərarlaşdı. Onu da qeyd edim ki, bundan 5 il öncə ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarında komandamız göstərdiyi uğurlu nəticələrlə birinci yerin sahibi olmuşdu.

Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun da idmançıları V İslam Həmrəyliyi Oyunlarında uğurla çıxış etdilər. Turnirdən medalla qayıdan MOİK idmançıları Rafiq Hüseynovun və Nazilə İsmayılovanın, eləcə də baş məşqçi Emil Əliyevin yarışla bağlı təəssüratlarını öyrəndik. İlk müsahibim ağır atletika üzrə məşqçi Emil Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin idmançılarla görüşməsinin hər bir təmsilçimiz üçün əlavə motivasiya olmasını xüsusi qeyd etdi və yarışlara hazırlığın təşkili ilə bağlı bizə məlumat verdi. "Yarışlara hazırlıq müddəti üç ay çəkdi. İştirakçılar ciddi rejimdə məşq edir və yarışa hazırlıqlarını artırırdılar. Gərgin əməyin və möhkəm iradənin nəticəsi idi ki, MOİK idmançıları V İslam Həmrəyliyi Oyunlarında özlərini yaxşı tərəfdən göstərməyi bacardılar. Yarışlar gərgin keçdi. Çünki dünyanın müxtəlif ölkələrindən peşəkar idmançılar bu yarışda iştirak edirdilər. İslamiadada iştirak edən idmançılarımız hər zamankı kimi bu yarışlarda da yüksək nəticə qazandılar. Bu fikri dövlət başçımız bizimlə görüşündə də vurğuladı. O bildirdi ki, ölkəmizdə idmanın bir çox növləri inkişaf edir və bunun nəticəsidir ki, idmançılarımız 19 idman növündə müxtəlif medallar qazandılar. Əldə edilmiş nailiyyətlərə görə hər birimizi təbrik edən Prezident İlham Əliyev Odlar Yurdu Azərbaycanın idman ölkəsi olmasını və idmançıların bu yarışda da Vətənimizi layiqincə təmsil etdiyini qeyd etdi. İslamiadanın açılışı günündə Azərbaycan Prezidenti İlham Əliyev idmançılarımızın ölkəmizi bu yarışlarda ləyaqətlə təmsil edəcəyinə inamını vurğulamışdı. Sevinirik ki, belə də oldu. Təmsilçilərimiz əllərindən gələni etdilər ki, üçrəngli bayrağımız daim yüksəklərdə olsun. Bu yarışa biz qalib ölkənin idmançıları olaraq qatılmışdıq. Bunun üçün də atletlərimiz qazanılan hər qələbəni torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərimizə həsr etdilər. Fəxri kürsünün ən yüksək pilləsində qərarlaşanda, Himnimizin səslənməsi, şanlı bayrağımızın yüksəlməsi hər birimizin ruhuna sığal çəkirdi".

Rafiq Hüseynov V İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazanmış hərbçimizdir. Dünya arenalarında təşkil olunan Olimpiada, dünya və Avropa miqyasında yarışlarda dəfələrlə iştirak edərək fərqlənən güləşçimiz R.Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yarış iştirakçıları ilə görüşü zamanı çıxış edərək dövlət başçımız, Ali Baş Komandan İlham Əliyevin idmançılarımıza hər zaman yüksək diqqət və qayğı nümayiş etdirdiyini vurğulayıb. "Məhz V İslam Həmrəyliyi Oyunlarında Cənab Prezidentimizin öz dəyərli vaxtını ayırıb bizimlə görüşməsi hər birimizin əhval-ruhiyyəsini qələbəyə köklədi. İdmanda motivasiya çox mühüm amildir ki, dövlət başçımızın ziyarətindən ruhlanan idmançı olaraq rəqiblərimin hər birini məğlub etməyi bacardım və Prezidentimizin etimadını doğrultduğum üçün sevincliyəm. Hər bir idmançının hədəfi yüksək nailiyyət qazanaraq, dövləti layiqincə təmsil etmək və bayrağımızı yüksəkdə dalğalandırmaqdır. Qazandığım qələbələrlə heç zaman kifayətlənmirəm. Xalqın inamı, Ali Baş Komandanımızın idmançılara olan diqqət və qayğısı bizi yeni zəfərlərə ruhlandırır. Arzularımızı reallaşdırmaq üçün yeni qələbələr qazanmaqla əlimdən gələni bundan sonra da davam etdirəcəyəm. Diqqətinizə çatdırmaq yerinə düşərdi ki, qarşıdan güləş üzrə Dünya çempionatı gəlir və ən əsas hədəfim bu yarışda iştirak edib, çempion olaraq milli güləşçimiz Fərid Mansurovun rekorduna çatmaqdır. V İslam Həmrəyliyi Oyunlarında aldığım zədə tam sağalmasa da, iştirak etməyi qarşıma məqsəd qoymuşdum. Çünki bundan əvvəl ölkəmizdə keçirilən İslamiadada gümüş medal qazanmışdım. Bu yarışda isə hədəfim çempion olmaq idi. Və qəbul etdiyim qərar riskli olmasına baxmayaraq, çox uğurlu oldu və mən bu yarışda qızıl medal qazanmağı bacardım. Yarış vaxtı ən çətin rəqibim qardaş Türkiyə Respublikasının idmançısı Emrah Kuş oldu. Bundan əlavə, Emrahla yeniyetmə dövründən tanışıq və aramızda sıx dostluq əlaqəsi var. Aramızda gərgin amma dostluq şəraitində keçən qarşılaşmada qalib gələn tərəf mən oldum. Və çox sevinirəm ki, qardaş ölkədə qardaşımla sağlam mübarizə apardım və qardaş Türkiyədə Azərbaycanımızın üçrəngli bayrağını ən yüksək pillədə dalğalandırmağı bacardım. Yarış müddətində hər birimiz qazandığımız qələbələri şəhidlərimizə həsr etdik".

Sonuncu müsahibim ağır atletika üzrə bürünc mükafata layiq görülmüş Nazilə İsmayılova oldu. "Bu gün ölkəmizdə demək olar ki, bütün idman növlərində dinamik inkişaf nəzərə çarpır. Ölkəmizin gəncləri istər ölkə daxilində, istərsə də ölkə hüdudlarından kənarda təşkil olunan müxtəlifmiqyaslı idman müsabiqələrində iştirak edir və nailiyyətlər qazanırlar. Təbiidir ki, istənilən yarışda bir təmsilçimizin qələbəsi bütün ölkəmizin qələbəsi deməkdir və ölkənin idman nüfuzuna təsir edən əsas amillərdəndir. Bunun üçün də, İslamiadada da müxtəlif idman növü üzrə mübarizə aparmağımıza baxmayaraq, millimizi digər yarışlarda dəstəkləməyə gəlirdik. Çünki komanda yoldaşına mənəvi dəstək yarışda atılması zəruri olan addımlardan biridir. İdmançı hər bir halda mübarizəyə meyilli olmalı və heç vaxt ruhdan düşməməlidir. Qadın olaraq ağır atletika idmançısı olmağım qürurverici və məsuliyyətlidir. Bu mənim ilk beynəlxalq yarışda iştirakım idi. Bundan əvvəl bir neçə dəfə Respublika çempionatlarında uğurlarım olub. V İslam Həmrəyliyi Oyunlarının ağır atletika yarışlarında 45 kq çəki dərəcəsində mübarizə apardım, könül istərdi ki, birinci yeri tutum, təəssüf ki, qismət olmadı, bürünc medalla təltif olundum. V İslam Həmrəyliyi Oyunlarında göstərdiyim nəticə mənim üçün hər şeydən qabaq böyük təcrübə oldu. Bu gün də məşqlərimi davam etdirir, təcrübəli məşqçilərin rəhbərliyi altında inamla öz hazırlığımı daha da artırıram. Artırıram ki, qarşıdakı yarışlarda üzərimə düşən vəzifəni layiqincə yerinə yetirməyi bacarım və üçrəngli bayrağımızı ən yüksək zirvələrdə dalğalandırım".

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Kəlbəcər və Laçın istiqamətində mövqelərimiz atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sentyabrın 3-ü günorta saatlarından 4-ü səhər saatlarınadək Azərbaycan-Ermənistan dövlət sərhədinin Basarkeçər, Gorus və Qarakilsə rayonları istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər və Laçın rayonları istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Şəxsi heyət və texnikamızda itki yoxdur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

* * *

Sentyabrın 4-ü axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Yuxarı Şorca və Zərkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zəylik və Yuxarı Ayrım yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

* * *

Sentyabrın 4-dən 5-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Aşağı Şorca və Yuxarı Şorca yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yellicə və Zivel yaşayış məntəqələri istiqamətində yerləşən Ordumuzun mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə kəşfiyyatı PKK-nın liderlərindən birini zərərsizləşdirib



İraqın şimalında keçirilən növbəti əməliyyat nəticəsində PKK terror təşkilatına daha bir ağır zərbə vurulub.

Sincar bölgəsində həyata keçirilən əməliyyat ilə PKK-nın liderlərindən olan Bedirhan Abi zərərsizləşdirib.

Əməliyyat Türkiyənin Milli Kəşfiyyat Təşkilatı (MİT) tərəfindən aparılıb.

Türkiyə vətəndaşı olan bu terrorçu 2011-ci ildən ölkə daxilində terror fəaliyyətlərinə başlayıb, daha sonra İraqa keçib.

## Suriyada hərbi helikopter yaşayış binalarının üzərinə düşüb



Suriyanın şimal-şərqindəki Həma şəhərində hərbi helikopter qəzaya uğrayıb və yaşayış binalarının üzərinə düşüb.

Suriyanın Müdafiə Nazirliyi helikopterin ekipajının həlak olduğunu bildirib, lakin binaların sakinləri arasında itkilər barədə məlumat verilməyib.

Məlumatda helikopterin texniki nasazlıq səbəbindən qəzaya uğradığı qeyd olunub.

## İranın Hərbi Dəniz Donanmasına yeni gəmilər verilib



İran Ordusunun baş qərargah rəisi general Məhəmməd Baqerinin iştirakı ilə ölkənin Hərbi Dəniz Donanmasına yeni gəmilər verilib.

Bəndər Abbas hərbi bazasında keçirilən mərasimdə M.Baqeri yeni gəmilərin İran istehsalı olduğunu bildirib. Qeyd edib ki, gəmilər uzaq hədəfləri vurmaq üçün raket sistemi ilə təchiz olunub.

Mərasimdə çıxış edən ordu generalı Əbdülrəhim Müsəvi isə bəyan edib ki, İran Ordusu yaxın günlərdə genişmiqyaslı hərbi təlimlər keçirəcək. Təlimlərə 150 ədəd pilotsuz uçan aparat, hava hücumundan müdafiə qüvvələri və digər hərbi birliklər qatılacaq.

General nəzərə çatdırıb ki, hava hücumundan müdafiə qüvvələri 24 saat ölkənin hava sərhədlərinin mühafizəsində dayanır. Heç bir düşmən təyyarəsi İranın hava sərhədini poza bilməz.

O vurğulayıb ki, İran heç bir dövlətlə hərbi toqquşmanın baş verməsini istəmir. Lakin İran Ordusu xalqın müdafiəsi üçün hər zaman hazırdır.

## Tunis ordusu İŞİD-in 3 terrorçusunu məhv edib



Tunis ordusunun ölkənin qərbində keçirdiyi antiterror əməliyyatı zamanı İŞİD terror təşkilatının üzvü olan 3 nəfər məhv edilib.

"Əl Əhram" qəzeti xəbər verir ki, özlərini İŞİD-in bölgədəki "Xilafət əsgərləri" adlandıran silahlı qruplaşmaya qarşı antiterror əməliyyatı Əlcəzairlə sərhəddə yerləşən Kasserine qəsəbəsi yaxınlığındakı Sallum dağında keçirilib. Terrorçular üç həftə əvvəl bu ərazidə iki Tunis hərbçisini yaralamışdılar. Həmçinin bu silahlı qruplaşma hələ 2011-ci ildə çimərlikdə onlarla əcnəbi turisti qətlə yetirib, bu terror aktından sonra onun üzvləri dağlıq ərazidəki mağaralarda gizləniblər.

Tunis ordusunun sözçüsü bildirib ki, "Xilafət əsgərləri" terrorçu dəstəsinə qarşı 2016-cı ildə keçirilmiş əməliyyat zamanı 55 terrorçu məhv edilib, 13 hərbçi və 7 mülki şəxs həlak olub.

**AZƏRTAC-ın materialları əsasında**

# "TurAz Qartalı-2022" təlimlərinin açılış mərasimi keçirilib





*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sentyabrın 5-də "TurAz Qartalı-2022" birgə taktiki-uçuş təlimlərinin açılış mərasimi keçirilib.*

Tədbirdə Azərbaycanın və Türkiyənin hərbi qulluqçuları, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və başqaları iştirak ediblər.

Əvvəlcə hər iki dövlətin himnləri səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkələrimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Hərbi Hava Qüvvələrinin zabiti general-mayor Zaur Rüstəmov qonaqları salamlayaraq vurğulayıb ki, bu cür təlimlərin keçirilməsi birgə fəaliyyətlərinin planlaşdırılması, qarşılıqlı əlaqə və döyüş uzlaşmasının öyrənilməsi, eləcə də axtarış-xilasetmə tədbirlərinin icrası baxımından mühüm əhəmiyyət kəsb edir.



Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin uğurlu inkişafından, bu münasibətlərin yüksək nəticələrindən danışıb.

Digər çıxış edənlər də təlimlərin başlanması və döyüş aviasiyasının uçuşlarının yüksək səviyyədə keçirilməsi ilə əlaqədar iştirakçılara uğurlar arzulayıblar.

Sonra təlimlərin məqsədi, şəxsi heyətin hazırlığı, yerləşməsi, cəlb edilən qüvvələr, icra edilən tapşırıqlar, aviasiya vasitələrinin uçuşu və istifadəsi barədə brifinq verilib.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib.

# Hərbi qulluqçular arasında səmti müəyyənetmə yarışı keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Quru Qoşunlarının 2022-ci tədris ilinə hazırlıq planına əsasən, hərbi qulluqçular arasında səmti müəyyənetmə yarışı keçirilib.*

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.





Yarışa start verilməmişdən öncə hərbi qulluqçular təlimatlandırılıb. Qeyd olunub ki, birinciliyin keçirilməsində əsas məqsəd hərbi qulluqçuların dözümlülüyünü artırmaq, onların kompas və xəritədən istifadə etmə bacarıqlarını təkmilləşdirməkdir.

Yarışlarda 7 komandanın 38 hərbi qulluqçusu mübarizə aparıb. İştirakçılar təyin olunan məsafəyə qaçış edərək xəritə üzərində göstərilən hədəflərin aşkarlanması tapşırıqlarını yerinə yetiriblər. Yarışın qaydalarına əsasən, kişi hərbi qulluqçular 4 km məsafədə 10 nəzarət nöqtəsini, qadın hərbi qulluqçular isə 3 km məsafədə 8 nəzarət nöqtəsini müəyyənləşdiriblər.

Quru Qoşunlarının və Azərbaycan Respublikası Səmti Müəyyənetmə İdman Federasiyasının hakimlər komissiyasının üzvləri yarışın yekun nəticələrinə əsasən qalibləri müəyyən edib.

Qaliblər fəxri fərman, kubok və medallarla mükafatlandırılıblar.





# İdman

## Paracüdo idman növü üzrə milli komandamız Avropa çempionatında 6 medal qazanıb



Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin paracüdo idman növü üzrə milli komandasının üzvü İlham Zəkiyev (+90 kq, J1) İtaliyanın Kalyari şəhərində keçirilən Avropa çempionatında bütün rəqiblərinə qalib gələrək çempionatın qızıl medalını qazanıb.

Millimizin digər üzvləri Zakir Mislimov (-90 kq, J1), Xatirə İsmiyeva (+70 kq, J1) və Dürsədəf Kərimova (+70 kq, J2) isə bürünc medala sahib olublar.

Qeyd edək ki, sentyabrın 2-də Namiq Abasov və İsmayıl Muradov iki bürünc medal qazanıblar.

Beləliklə, millimiz bir qızıl və beş bürünc olmaqla, ümumilikdə altı medalla Avropa çempionatını tamamlayıb.

## Azərbaycan sumoçuları gənclərin Avropa çempionatında uğurla çıxış ediblər



Polşanın Krotoşin şəhərində gənc sumoçular arasında Avropa çempionatı keçirilib.

Azərbaycan təmsilçiləri Həsən Ağazadə (70 kq) və Camal Feyziyev (+115 kq) qızıl medala sahib olublar.

C.Feyziyev, həmçinin mütləq çəkidə bürünc medal qazanıb.

## Azərbaycanın 2 boksçusu Qazaxıstanda keçirilən beynəlxalq turniri bürünc medalla başa vurub



Azərbaycanın 2 boksçusu Qazaxıstanın Aktau şəhərində keçirilən beynəlxalq turniri bürünc medalla başa vurub.

Azərbaycan Boks Federasiyasına istinadla xəbər verir ki, Ruslan Qədirov (54 kq) və Rauf Rəhimov (92 kq) üçüncü yeri tutublar.

R.Qədirov yarımfinalda qazaxıstanlı Timur Kabdeşovla üz-üzə gəlib. Rəqib finala yüksəldiyindən boksçu bürünc mükafata layiq görülüb.

R.Rəhimov isə özbəkistanlı Nusratbek Tohirovla qüvvəsini sınayıb. Asiyalı mərhələ adladığından Azərbaycan boksçusu fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

## Çimərlik güləşçimiz Fərid Cabbarov dünya çempionu olub



Rumıniyanın Konstantsa şəhərində keçirilən çimərlik güləşi üzrə U-20 dünya çempionatında Azərbaycan idmançısı Fərid Cabbarov (90 kq)qızıl medal qazanıb.

Digər təmsilçimiz Zəfər Əliyev (+90 kq) finalda uduzaraq gümüş medalla kifayətlənib, Rübail İbrahimli (70 kq) bürünc mükafat qazanıb. Yalnız Fərid Yusifov (80 kq) medalsız qalıb.

Bu nəticə ilə Azərbaycan meydan sahibi Rumıniyadan (95 xal) sonra ikinci olub. Azərbaycan millisi 68 xal qazanıb.

Qeyd edək ki, daha əvvəl Hüseyn Sevdimov (50 kq), Ziya Göyüşov (60 kq), Vüsal Əliyev (70 kq) və Anar Cəfərlidən (80 kq) ibarət Azərbaycanın çimərlik güləşi üzrə U-17 millisi eyni məkanda həm fərdi yarışda, həm də komanda hesabında dünya çempionu olub.

**AZƏRTAC-ın materialları əsasında**

Baş redaktorun müavini
kapitan
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Lalə HÜSEYNOVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 838
Nüsxə 4660